# Aşıq Əhmədin həyatı və sənət yolu

**Azərbaycan aşıq sənətinin görkəmli nümayəndələrindən biri olan Aşıq Əhməd Ədil bəy oğlu Rüstəmov 1920-ci ildə Kürdəmir rayonunun Carlı kəndində anadan olmuşdur. Aşığın uşaqlıq illəri kifayət qədər ağır və məhrumiyyətlərlə dolu bir dövrə təsadüf edir. Məhz həmin ildə Azərbaycan Xalq Cümhuriyyəti (AXC) (1918-1920) süquta uğramış, rus bolşevik imperiyası Azərbaycanı yenidən işğal etmişdi. Bu işğalın ilk zərbələrindən biri də türk milli zadəganlıq institutuna - bəyliyə dəymişdi. İmperiya "qolçomaq" adı altında bəyliyi sinfi düşmən kimi tamamilə məhv etmişdi.**

Elə yaranışının ilk ilindən - 1920-ci ildən başlanan bolşevik represiya rejiminin ilk qurbanlarından biri də Aşıq Əhmədin atası Ədil bəy olur.Aşığın sayca 3-cü olan "İtən sazım" şeirlər kitabında "Müəllifdən" başlığı altında həmin dövrün bir ailənin simasında konkret xarakteri açıqlanır. Sənətkar özü ağır keçən uşaqlıq illərini belə xatırlamışdır: "1930-cu ildə ibtidai məktəbə qəbul edildim. Dərd bizi Ozana, Qazana döndərmişdi. Şeirə, sənətə çox marağım var idi.

### *Üçüncü sinifdə*

ilk şeirimi yazdım: Qara neft ölkəmizi Doldurur. Allah birin yıxır, Birin qaldırır. 1936-cı ildən başlayaraq taxtadan bir saz qondarıb, qonum-qonşuda, bayramda, çilə çıxaran qızların məclisində çalıb oxuyardım... Anamda elə bir hafizə var idi ki, Ərəbxana kəndindən Aşıq Zeynalabdinin bizim kənddə keçirdiyi toy məclislərində çalıb-oxuyanda dediyi sözləri, oxuduğu havaları dərhal əzbərləyirdi. "Seydi və Kərəm" dastanını da mən anamdan öyənmişəm. Saz götürüb ilk dəfə etdiyim toy Carlıda Nəsir adlı bir oğlanın toyu olub. Ondan sonra anam məni öz həmkəndlimiz balabançı, saz çalmağı bacaran Əli dayının yanına apardı. Bir tağar buğdaya, bir camış düyəsinə, üç batman lobyaya qiymət kəsdilər ki, məni öyrətsin. Əli dayı mənə "Ordubadi"ni, "Şəşəngi"ni, "Şirvan gözəlləməsi"ni, "Qobustan pişroları"nı, "Osmanlı" havalarını öyrətdi, çaldırdı, oxutdu, oynatdı." Beləliklə, Aşıq Əhməd sənət praktikasına başlayıb. Əlli ildən artıq yorulmadan el şənliklərində, toyda-düyündə, ictimai tədbirlərdə çalıb-çağırıb.Yaşı səksəni ötəndə də rayonun ictimai-siyasi, mədəni-kütləvi tədbirlərində iştirak etib. Qoca vaxtı əli titrədiyinə görə saz çalmamış, amma bədahətən, sinədəftər istənilən qədər şeir söyləyən a,şıq həm də son əlli ilin canlı mədəniyyət ensiklopediyası olmuşdur. Aşığın ədəbi irsi 2000-dən çox müxtəlif janrlı şeiri və 20-dək dastanı əhatə edir. Yaradıcılıq nümunələrinin bir hissəsi aşıq şeirlərindən ibarət müxtəlif antologiyalarda və ayrıca aşığın şeirləri toplanmış "Sazımın telləri" (1965), "Əlləriniz yorulmasın" (1980), "İtən sazım"(1995), "Xoş gəlmisən Kürdəmirə, rəhbərim" (1998), "Dastanlar" (2004), "Bir yumaqdı bu dünya"(2009) kitablarında nəşr olunmuşdur. Gənclik illərindən aşıqlıq sənətinin sirlərini, tarixini, incəliklərini dərindən öyrənən aşıq xalq arasında sevilən dastanları mükəmməl öyrənməklə özü də əski dastan ənənəsinə uyğun dastanlar yaratmışdır.

***Onun təcnisləri, qoşmaları, gəraylıları, ustadnamələri ağızdan ağıza düşür, el arasında aşıqlar, müğənnilər tərəfindən sevilə-sevilə oxunur. Aşıq Əhmədin öz səsi, öz boğazı, öz üslubunda oxuduğu gözəlləmələr ("Bir salam verək", "Muğanlı qız, Şirvana gəl", "Yox-yox"), şəşəngi ("Düzməyə gəlsin"), şikəstə ("Dur gedək" "Məni") və s. tez bir zamanda el məclislərində bənzərsizliyi ilə seçilir, sevilir, bəyənilir, ruhları oxşayır, ürəklərə yol tapır və əbədiləşir.***

Aşıq Teyfur, Aşıq Məmmədağa, Əvəzxan Xankişiyev, Aşıq Şərbət, Aşıq Yanvar, Rəhilə Həsənova, Eynulla Cəbrayılov, Sabir Mirzəyev, Şahnaz Haşımova ,Elnarə Abdullayeva,Aşıq Ağamurad, Solmaz Kosayeva, Aşıq Fərhad, Aşıq Əhliman, Aşıq Rza və başqa bir çox məşhur aşıq və müğənnilər Aşıq Əhmədin sözlərini repertuarlarına daxil etmiş, el şənliklərində, konsert salonlarında, efirdə və ekranda yüksək peşəkarlıqla ifa etmişlər.

### *Geniş dinləyici auditoriyasının rəğbətini qazanmış*

çoxsaylı mahnıları bu gün də yüksək səviyyədə sevilməkdədir. Aşıq Əhməd Kürdəmirdə və bütövlükdə respublikada mədəniyyət və incəsənətin inkişaf etdirilməsində səmərəli fəaliyyət göstərmişdir. 1978-ci ilin fevral ayının 11-də Bakıda Abbasmirzə Şərifzadə adına Aktyor evində onun yaradıcılıq gecəsi keçirilmişdir. Gecədə respublikamızın görkəmli elm, mədəniyyət xadimləri, tanınmış ustad sənətkarlar iştirak etmişlər. SSRİ Həmkarlar İttifaqı Mərkəzi Şurasının 21 fevral 1978-ci il tarixli 15 saylı qərarı ilə Aşıq Əhməd Rüstəmov "Kəndlərdə mədəni hamilik əlaçısı" döş nişanı ilə təltif olunmuşdur.



Aşıq Əhməd müharibə və əmək veteranı idi. O, Böyük Və tən müharibəsində qələbənin 20, 25, 40, 50 illik yübiley medalları, habelə bir neçə ordenlə təltif edilmişdir.

Aşıq sənətinin inkişafında, təbliğində yarıməsrlik səmərəli xidmətlərinə və anadan olmasının 70 illiyi münasibətilə Aşıq Əhməd Rüstəmov Azərbaycan Aşıqlar Birliyi Rəyasət Heyətinin "Fəxri Fərmanı" ilə təltif olunmuşdur. Aşıq Əhmədin həm də zəngin ictimai fəaliyyəti olmuşdur. O, dəfələrlə rayon və şəhər sovetlərinin deputatı seçilmiş, rayon "Bilik" Cəmiyyətinin, Ziyalılar Cəmiyyətinin, Ağsaqqallar Şurasının üzvü olmuşdur. Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin 3 noyabr 1989-cu il tarixli fərmanı ilə Əhməd Ədil oğlu Rüstəmova xalq yaradıcılığında xidmətlərinə görə "Azərbaycan SSR-in əməkdar Mədəniyyət İşçisi" fəxri adı verilmişdir. Azərbaycan Yazıçılar Birliyinin 14 aprel 1998-ci il tarixli qərarı ilə Azərbaycan Yazıçılar Birliyinə üzv qəbul edilmişdir. O ölümünə qədər rayonun ictimai-mədəni həyatında fəal iştirak etmiş, bütün qüvvə və bacarığını yaradıcılığa, mədəniyyət və incəsənətin çiçəklənməsinə, mədəni-kütləvi tədbirlərin hazırlanıb keçirilməsinə sərf etmişdir. Mütəmadi surətdə hərbi hissələrdə olmuş, milli ordumuzun əsgər və zabitləri qarşısında hərbi-vətənpərvərlik mövzusunda şeirlər söyləmiş, əsgərləri mərdliyə, cəsurluğa ruhlandırmışdır. Uzun illər qədim Şirvan aşıq mühitinin ənənələrini yorulmadan davam etdirən Aşıq Əhməd ustad sənətkar olmaqla yanaşı, həm də geniş oxucu kütləsi tərəfindən rəğbətlə qarşılanan şair idi. Bu mənada Aşıq Əhməd yaradıcılığını həm aşıq yaradıcılığı kimi, həm el şairliyi kimi, həm də ümumiyyətlə, şairlik kimi səciyyələndirmək mümkündür. Azərbaycan aşıq sənətinin inkişafında görkəmli rol oynamış Aşıq Əhməd 2008-ci ilin avqust ayının 12-də ömrünün 88-ci ilində Kürdəmir rayonunda vəfat etmiş və rayonunun Fəxri Xiyabanında dəfn olunmuşdur.

**Nə mənası var? Tale tərəqqidən salsa insanı, Atılıb düşməyin nə mənası var? Bir bulaq gözündən qurusa, onu Min yerdən eşməyin nə mənası var? Yüz rənglə naxış vur, min yolla bəzə, Sabah köhnələcək bu günkü təzə, Taleyin hökmüylə bağlanan gözə, Qızıldan çeşməyin nə mənası var? Hər kəsin taleyi xoş keçsə əgər, Əyninə bez geysə, "atlas" deyərlər, Bəxti kəm alimə nadan atsa şər, İnciyib küsməyin nə mənası var? Əhməd, el məsəlin gəl eşit sən də, Daş düşər qürbətə yük əyiləndə. Zərdən şeş istəyib, yek gətirəndə, Qovrulub-bişməyin nə mənası var?**

**Yaqut Bahadurqızı,**
**AMEA N.Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi Aran filialının müdiri, f.üzrə fəlsəfə doktoru**

Ədalət.- 2020.- 21 may. S. 8.